# BAKI DÖVLƏT UNİVERSİTETİNİN QAZAX FİLİALI

Bakı Dövlət Universitetinin Qazax filialının Direktorluğunun 16 mart 2023-cü il tarixli iclasının (Protokol № 3) qərarı ilə qəbul edilmişdir.

**TƏSDİQ EDİRƏM**

**Direktor ____________ Arif Rüstəmov**

**« 16 » « mart » 2023-cü il**

**KİTABXANANIN**

# Ə S A S N A M Ə S İ

## 1. Ümumi müddəalar

1.1. Bu Əsasnamə BDU-nun Qazax filialının kitabxanasının fəaliyyətini tənzimləyir.

1.2. Kitabxana filialın əsas struktur bölmələrindən biri olaraq, tədris, elmi-tədqiqat və təlim-tərbiyə prosesinin informasiya təminatını həyata keçirir. Biliyi, elmi, mədəniyyəti yeni metodlarla təbliğ edən, çap məhsullarını və elektron resursları toplayıb mühafizə edən kitabxana həmçinin ədəbiyyatın sistemli ictimai istifadəsini təşkil edən, oxucuların intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən srtuktur bölmədir.

## 2. Kitabxananın vəzifələri

2.1. Azərbaycan Respublikası Prezidentinin təhsillə bağlı fərmanlarını və dövlət qərarlarını, elmin və təhsilin nailiyyətlərini, həmçinin oxucuların elmi dünyagörüşü haqqında ədəbiyyatı təbliğ etmək;
2.2. Filialın professor-müəllim və tələbə heyətinə məlumat və kitabxana xidməti göstərməklə respublikada təhsilin səviyyəsinin yüksəlməsinə və inkişafına fəal kömək etmək, oxucular arasında yenilikləri yaymaq və təbliğ etmək;
2.3. Kitabxanaya müraciət edən oxuculara kitabxana və məlumat-informasiya xidmətinin yaxşılaşdırılması məqsədilə BDU-nun kitabxanası və digər təhsil müəssisələri, eləcə də rayonda yerləşən Mərkəzləşdirilmiş Kiabxanalar Sistemi ilə qarşılıqlı əlaqə yaratmaq;
2.4. Kitabxana fondunu aparıcı istiqamətlərə uyğun, həm də respublikanın digər universitetlərindən aldığı çap məhsulları ilə zənginləşdirmək;
2.5. BDU-nun kitabxanasına xarici ölkə universitetlərindən gələn elmi, elmi-metodik istiqamətlərə uyğun nəşr materiallarını əldə etmək;
2.6. Filialın oxucularının BDU-nun elektron kitabxanasından (bdu.edu.az.saytı üzərindən) istifadəsini təmin etmək.

## 3. Kitabxananın hüquqları

3.1. “Kitabxana işi haqqında Azərbaycan Respublikası Qanunu”nun 15-ci maddəsinə uyğun olaraq, BDU nəşriyyatında çap olunan nəşrləri və poliqrafiya müəssisələrində nəşr olunan lazımi qəzet və jurnalların nüsxələrini əldə etmək;
3.2. Kitabxana fondunun komplektləşdirilməsi mənbələrinin müəyyənləşdirilməsində iştirak etmək;
3.3. Respublika və xarici dövlətlərin kitabxanaları ilə əlaqə yaradılmasında iştirak etmək;
3.4. Köhnəlmiş və yararsız hala düşmüş kitabları qanunvericilikdə müəyyən olunmuş qaydada kitabxana fondundan silmək;
3.5. Fiziki və hüquqi şəxslər tərəfindən kitabxanya dəymiş ziyanın ödənilməsini qanunvericilikdə müəyyən olunmuş qaydada tələb etmək.

## 4. Kitabxanada işin təşkili

4.1. Kitabxana fondunun zənginləşdirilməsi məqsədilə aşağıdakılar təmin edilir:

4.1.1. Kitabxana fondu respublikada və xarici dövlətlərdə nəşr edilən elmi-metodik, tədris, pedaqoji, psixoloji, ictimai-siyasi və filialın profilinə uyğun digər sahələrə aid ədəbiyyatla komplektləşdirilir;

4.1.2. Çap nəşrlərinin ümumi və fərdi uçotu təmin edilir;

4.1.3. Ədəbiyyatlar elmi və texniki cəhətdən işlənib ayrılır;

4.1.4. Kitabxana Fondu kataloqlaşdırılır;

4.1.5. Kitabxana fondunun təkmilləşdirilməsi üzrə iş aparılır, yeni ədəbiyyatlar seçilir, məzmunca köhnəlmiş və istifadəyə yararsız ədəbiyyatlar silinir, artıq ədəbiyyatlar ayırılır, mübadiləyə verilir, az istifadə olunan kitablar depozit fonduna ayırılır;

4.2. Təhsil işçilərinə, tələbələrə kitabxana xidmətini həyata keçirmək, onların elmi, metodik və ixtisas biliklərinin artırılmasına kömək etmək məqsədilə:

4.2.1. Oxuculara oxu zalında, abonomentdə xidmət təşkil edilir;

4.2.2. Oxucularla fərdi iş aparılır və ədəbiyyat seçməkdə onlara yardım edilir;

4.2.3. Ədəbiyyatın təbliğində müxtəlif metodlardan istifadə edilir;

4.2.4. Məlumat biblioqrafiya işi aparılır, oxucuların sorğusunu şifahi cavablandırılır;

4.3. Kitabxananın strukturu və maliyyələşdirilməsi:

4.3.1. Kitabxananın strukturu BDU-nun Elmi Şurasının qərarına əsasən təsdiq edilir;

4.3.2. Kitabxana filialın büdcəsi hesabına maliyyələşdirilir;

4.3.3. Kitabxana fondunun yeni nəşrlərlə komplektləşdirilməsi üçün vəsait filial tərəfindən ayrılır.